**30.03.2022: xəbər**

## Khazar University Faculty Member Appointed a Member of Mediation Council's Qualification Commission

Huseyn Aliyev, the mediator-trainer teaching "Mediation: Theory and Practice" at Khazar University's School of Economics and Management, has been appointed a member of the Mediation Council's Qualification Commission. The decision was made at a joint meeting of the Qualification and Disciplinary Commissions of the Mediation Council.

H. Aliyev graduated with a bachelor's degree in International Law from Baku State University in 2003-2007, and a master's degree in Business Administration (MBA) from Girne American University of the Turkish Republic of Northern Cyprus in 2007-2009. From 2011 to 2012, he studied at the University of Tulane under the US Department of State's Edmund S. Muskie Exchange Program (Muskie), earning a master's degree in International and Comparative Law. H. Aliyev, who specialized in corporate and commercial law and has 12 years of professional experience, currently works as the head of the legal department at an oil and gas company. Prior to his appointment as a member of the Qualification Commission, he was a member of the Mediation Council's Project Management Working Group. He is also a new member of the Bar Association of the Republic of Azerbaijan. H.Aliyev has been teaching "Out-of-Court Dispute Resolution" at Baku State University since 2012 and "Mediation: Theory and Practice" at Khazar University since 2022.

On March 29, 2022, *Huquq.az* and other websites published news about it.

https://www.e-huquq.az/az/news/mediation/46067.html

## "Xəzər"in müəllimi Mediasiya Şurasının İxtisas Komissiyasına üzv təyin olunub

Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsində "Mediasiya: nəzəriyyə və praktika" fənnini tədris edən mediator-təlimçi Hüseyn Əliyev Mediasiya Şurasının İxtisas Komissiyasının üzvü təyin olunub. Bu barədə Mediasiya Şurasının İdarə Heyətinin İxtisas və İntizam Komissiyalarının birgə keçirdiyi iclasda qərar qəbul edilib.

H.Əliyev bakalavr təhsilini 2003-2007-ci illərdə Bakı Dövlət Universitetində Beynəlxalq hüquq ixtisası üzrə, magistr təhsilini 2007-2009-cu illərdə Şimali Kipr Türk Respublikasının Girne Amerikan Universitetində Biznesin inzibatçılığı (MBA) istiqaməti üzrə fərqlənmə ilə bitirib. 2011-2012-ci illərdə ABŞ Dövlət Departamentinin Edmund S. Muskie Mübadilə Proqramı (Muskie) çərçivəsində Tuleyn Universitetində təhsil alaraq, Beynəlxalq və müqayisəli hüquq ixtisası üzrə fərqlənmə ilə magistr dərəcəsi alıb.

H.Əliyev Korporativ və kommersiya hüququ üzrə ixtisaslaşaraq, 12 illik peşəkar təcrübəyə malik olan Hüseyn Əliyev hazırda neft-qaz şirkətində hüquq şöbəsinin rəhbəri vəzifəsində çalışır. İxtisas Komissiyasının üzvü təyin olunanadək Mediasiya Şurasının Layihələrin idarə edilməsi işçi qrupunun üzvü kimi fəaliyyət göstərib. O, həmçinin, Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının yeni üzvlərindəndir. H.Əliyev 2012-ci ildən etibarən Bakı Dövlət Universitetində "Mübahisələrin məhkəmədənkənar həlli" və 2022-ci ildən etibarən Xəzər Universitetində "Mediasiya: nəzəriyyə və praktika" fənlərini tədris edir.

2022-ci il martın 29-da *Huquq.az* və digər saytlar bu barədə xəbər yayımlamışlar.

https://www.e-huquq.az/az/news/mediation/46067.html